**Ərəb yoxsa latın əlifbası?**
**Xətt gəmisi dəyərində islahat**
**1926-cı ildə Bakida keçirilmiş Ilk Türkoloji konqresdə müzakirələr**

Mənbə: Azerbaijan International jurnalı - AI 8.1 (Yaz 2000)
© Azerbaijan International

1926-cı ildə ilk dəfə olaraq Bakıda Türkiyənin və Sovet İttifaqının türkdilli ölkələrinin nümayəndələrinin (Türkmən, Qazağıstanlı, Qırğız, Özbək, Azərbaycanlı) İlk Türkoloji konfransı keçirildi. Çuvaşlar, yakutlar xakaslar və balkarlar da daxil olmaqla Rusiya daxilində yaşayan türkdilli azlıqların nümayəndələri də dəvət edilmişdi.



1926-cı ildə Bakida keçirilmiş Ilk Türkoloji konqresin nümayəndələri. Foto: Milli Arxiv.

Hamının beynində bir fikir dolaşırdı - görəsən biz ərəb əlifbasında onun türk dilinin fonetikasını daha zəngin ifadə etməsi üçün islahatlar aparmalıyıq, yoxsa tamamilə yeni əlifba—müasirləşdirilmiş latın əlifbasını qəbul etməliyik? Bundan başqa elə bir ümumi - hamımızın işlədə biləcəyı bir, vahid əlifba üzərində qərar tuta biləcəyikmi?

Qızğın mübahisələr səkkiz gün, fevralın 26-dan martın-beşinədək davam etdi. Xoş təsadüfdən bu Konqresin stenoqraf yazıları arxivdə qalır və bu şans bizə imkan verir ki, ərəb və latın əlifbasının tərəfdarları arasında gedən mübahisənin gərginliyini hiss edək.

Konqresdə qoyulan arqumentlərin bəziləri linqvistik və elmi biliklərə əsaslanmış, bəziləri isə mənasız cəfəngiyyatdan başqa bir şey deyil. Lakin bu sənədlərdən ilkin islahatçıların necə təqdirəlayiq bir iş gördüklərini, bu tarixi məqamın məsuliyyətini anladıqlarını görür və bunu alqışlayırıq. Lakin onlar heç təsəvvür edə bilməzdilər ki, Sovetin İslamla bağlı olan hər hansı bir əlaqəni yox etmək məqsədilə hazırladığı planda onlar yalnız kiçik zərrəcik rolunu oynayırdılar. Latın sisteminə keçmək üçün bu qədər cəhdlərin göstərilməsindən heç bir 10 illik keçməyəcəkdi ki, bütün bu cəhdlər boşa çıxarılacaqdı və Sovet İttifaqı tərkibində olan bütün müsəlman millətlərinin kiril əlifbasına keçməsi əmri veriləcəkdi.

Çox qısa bir qövrdə (1922-1939) latın əlifbasına keçid uğrunda başlanan bu hərəkat zahirən müvəffəqiyyətsizliyə uğrasa da, 50 il sonra, 1991-ci ildə, Azərbaycan müstəqillik əldə edəndən sonra, latın əlifbası faktoru əsas müzakirə olunan məsələlərdən birinə çevrildi və heç bir neçə həftə keçmədi ki, Parlament latın əlifbasının rəsmi əlifba elan olunmasına səs verdi.

İndi biz 1926-cı ildə keçirilən Konqres zamanı nələr baş verdiyini oxuculara açıqlamaq üçün daha kəskin argumentləri seçmişik.

---

**Bu yolla ruslar öyrənə bilərlər**

Peşkov: Millətlər (SSRİ-nin) bir-birini anlamaqda çətinlik çəkirlər. Bu problemi birdəfəlik aradan qaldırmaq üçün təhsildə daha qabaqda olan biz ruslar geridə qalan turk qardaşlarımıza daha çox diqqət yetirməliyk. Lakin ümumi dilimiz və yazı sistemimiz olmadan biz bu problemi həll edə bilməyəcəyik. Heç kimə sirr deyil ki, ərəb əlifbası ilə türk dili öyrənmək ruslar və başqa millətlər üçün hədsiz dərəcədə çətindir.

**Cahil insanları fikrindən döndərmək asandır**

Yakovlev: Əlifba islahatları həyata keçirilən zaman biz hər bir xalqın mədəni səviyyəsini və sosial durumunu nəzərə almalıyıq. Latın əlifbasına keçid prosesinin asanlığı həmin xalqın yazısının inkişafı ilə tərs mütənasibdir. Savadlıların sayı coxaldıqca, islahatın həyata keçirilməsi çətinləşəcək.

Hələ ki Azərbaycanda islahatların həyata keçirilməsi çox asanlıqla başa gəlir. Bunun iki səbəbi var. Birincisi, bütün ölkədə əhalinin savad səviyyəsi kifayət qədər yüksək deyil. Ikincisi, milli proletariat yalnız bir yerdə—Bakıda cəmləşmişdir. Əgər biz müsəlman millətləri yaşayan ərazilərə nəzər salsaq, görərik ki, müəyyən ərazilərdə ərəb əlifbası öz əhəmiyyətini itirir.

**Ərəb dili estetika üçündür**

Jirkov: Bu gün latın əlifabasına keçmə tendensiyası ilə yanaşı başqa bir tendensiya da mövcuddur - ərəb əlifbasını təkmilləşdirmək. Biz nəzərə almalıyıq ki, ərəb dili estetik prinsiplər əsasında yaradılmışdır. Ona görə də bu əlifba ancaq yazı üçün münasibdir. Ərəb əlifbasının hədsiz ecazkarlığı onun təkmilləşməsini texnoloji cəhətdən qeyri-mümkün edir. Ümumiyyətlə, əlifba üçün əsas səciyyəvi xüsusiyyət onun saflığı və aydınlığıdırsa, ərəb dilinin səciyyəvi xüsusiyyəti onun yazılışının estetik gözəlliyidir.

**Ərəb əlifbası eynək taxılmasına səbəb deyil**

Qəlimcan Şərəf: Mən razıyam ki, ərəb əlifbası turk dilinin bütün fonetik imkanlarını özündə əks etdirə bilmir, lakin demək lazımdır ki, latın əlifbası da bu tələbləri ödəmir. Öz dillərinin bütün səslərini əks etdirmək üçün türklər ya öz əlifbalarını yaratmalı, yaxud da latın əlifbasına xətlər və nöqtələr əlavə etməlidirlər. Yoldaş Ağamalıoğlu latın əlifbasının qəbulu məsələsini qaldırarkən Yoldaş Lenin soruşmuşdu: ¨Kəndlilərin bu barədə fikri necədir?¨
Ağamalıoğlu cavab vermişdir: ¨Onların buna münasibəti çoz yaxşıdır.¨
Lenin cavab vermişdir: ¨Bu Şərqdə inqilabdır.¨
Mən Leninin sualı və Ağamalıoğlunun cavabı barəsində danışmaq istəyirəm. Mənə elə gəlir ki, Ağamalıoğlu Azərbaycan kəndlilərinin latın əlifbasına asanlıqla alışacaqlarını deyərkən səhv edirdi.

Ərəb dilinin oxunuşunun çətin olması fikri düzgün deyil. Şərqdə insanların, hətta hədsiz dərəcədə oxuyub-yazanların neçə faizi eynəkdən istifadə edir? Bizim eynək taxmamız rus əlifba sistemindən qalan mirasdır.

Bundan əlavə, ərəb sistemində hərflərin yazılışı saat əqrəbi istiqamətində əlin təbii hərəkəti ilə mütənasiblik təşkil edir. Lakin kiril və latın əlifbasında yazarkən ¨o¨, ¨e¨, ¨b¨ kimi hərfləri yazmaq üçün əl saat əqrəbinin əksi istiqamətində də hərəkət etməlidir.

**Ərəb dilinin çətinliyi**

Umar Əliyev: Hətta proqressiv ərəblər belə ərəb əlifbasının çətinliyindən şikayətlənir. Belə bir ifadə var: ¨Avropa dillərində sözlər oxunur və başa düşülür. Ərəb dilində isə düzgün tələffüz etmək üçün əvvəl sözün mənasını tapmaq lazımdır [çünki qısa sait səslər yazılmır].

Məsələn deyək ki, ¨qəzənfər¨ sözünü yazmaq istəyirsən (şir). Ərəb dilində təkcə samit səslər yazılır, q-z-n-f-r. Türk dilində olan 12 saitin hamısını (və diftonqları) bütün mümkün variantlarda işlətməklə bu sözü ən azı 60 cür oxumaq olar.

Lakin doğrudur ki, ərəb hərflərinin heroqlif xarakteri sözlərin tez oxunmasına imkan yaradır. Lakin dilin bu üstünlüyü təkcə mütəxəssislər üşün yaxşıdır, əksinə ərəb dilində oxumağı öyrənənlər üçün çətinlik törədir. Üstəlik əgər yazıda diqqətli olmayıb hərfin üstündəki nöqtəni lazimi yerə yox, bir balaca uzağa, yaxud yaxına qoysan, oxucunu dolaşığa salmış olarsan.

Ərəb dili ancaq əl yazısı üçün yaradılmışdır. Ona görə də hərflərin sonunda quyruq var. Bu əl yazısı üçün vacib şərt idi. İndi görək texnologiya nəyi tələb edir? Həmin quyruqların aradan

götürülməsini. Ona görə də bu gün ərəb dili dilemma qarşısındadır. Yazıda və oxunuşda hərfləri bir-birindən fərqləndirmək üçün hərfin quyruğu vacib olduğu halda texnologiya quyruğu rədd edir. Quyruqların ləğv edilməsi ərəb əlifbasını oxumağı daha da çətinləşdirər.

Qəlimcan Şarifovun fikrinə görə ərəb əlifbası əlin təbii hərəkətinə uyğun yaradılmışdır. Bəs onda saat əqrəbi hərəkətinin əksi istiqamətində qoyulan nöqtələr necə olsun? Bu baxımdan ərəb dilində rəqəmlərin yazılışı da problemlidir. Çünki rəqəmlər hərflərdən fərqli olaraq soldan sağa yazılır—bu ərəb əlifbasının yazı qaydasına tamamilə ziddir.

**Minimum məxaric**

Sultan Məcid Əfəndiyev: Latın əlifbasının əksinə olanların bəziləri deyir ki, bu layihə xeyli miqdarda xərc və iş tələb edir. Lakin biz bu yolda geri çəkilməməliyik. İslahatın dəyəri ilə müqayisədə bu xərc heç nədir. Latin dilçilərinin ilkin nümayəndələrindən olan Mirzə Mülküm xan belə bir fikir söyləmişdir ki, yaxın Şərqin bütün ədəbi vərəsəsinin yenidən nəşr olunmasına çəkilən xərc iri bir döyüş gəmisinin tikintisinə sərf olunacaq xərcə bərabər olar. Bununla mən demək istəmirəm ki, biz bundan sonra ərəb dilindən tamamilə uzaqlaşmalıyıq. Ədəbi yazıların tədqiqi üçün ərəb dili işlədilə və öyrənilə bilər. Nümunə üçün baxın almanlara. Bu gün onlar hələ də Qotik və Latın dillərini paralel işlədirlər.

**Dəyişikliyə ehtiyac yoxdur**

Baytursun: Əlifba yalnız simvollar dəstidir. Əlifba problemindən o vaxt danışmaq lazımdır ki, əlifba ya heç mövcud olmasın, yaxud da dilin tələblərinə uyğun gəlməsin. Lakin bizim belə bir çətinliyimiz yoxdur. Əlifba üçün əsas kriteriyalar bunlar olmalıdır:
1. səsləri əks etdirmə imkanı
2. texniki münasibliyi (yazılışının texniki cəhətdən asanlığı)

Əgər bizim dilimizdə sait səslər çatışmırsa, biz ərəb əlifbasının qanunauyğunluqları əsasında yeni saitlər yaratmalıyıq.

Bu gün bizim kitab nəşri, lüğət tərtibatı, qrammatika kitablarının yazılması kimi vacib problemlərimiz var ki, diqqətimizi onların həllinə yönəltməliyik. Əhali yerin altında qazılmış daxmalarda mal-qara ilə birlikdə acınacaqlı vəziyyətdə yaşayır. Əgər bizə kömək etmək istəyən varsa, qoy daha əhəmiyyətli işlərdə kömək etsin.

Kimsə musiqi notlarının yazılışının soldan sağa, ərəb əlifbasının isə sağdan sola yazılmasını xatırlatdı. Türk dünyasında bizim nə qədər müğənnilərimiz var ki, yalnız onlar üçün əlifbanı dəyişək? Bu məsələ bundan sonrakı on ilin işidir, görək bu on ildə nə baş verir. Bu məsələ bu günün işi deyil.

**Mirasın dəyəri şişirdilir**

Ağamalıoğlu: Ərəb dilinin tərəfdarları belə deyirlər: ¨Bu bizim 500 illik mədəni mirasdır. Bu mirası itirmək istəmirik.¨ Düzdür Fuzuli və Nəvaimiz var (iki Azərbaycan şairi). Lakin həmin dövrdə cəmiyyətin ümumi səviyyəsi necə idi? Ərəb dili cəmiyyətin mədəni cəhətdən inkişaf etmədiyi bir

dövrdə meydana çixmışdı. Bu gün bəzi Türk aktrisaları deyir: ¨Bizim teatrın 50 illik tarixi var.¨ Demək lazımdır ki, bir teatrda qadın rollarını kişilər ifa edirsə, onda hansı teatrdan söhbət gedə bilər?

Ərəb əlifbası ancaq xəttlərdən ibarətdir. Əgər nöqtələri götürsən yerdə təkcə xətlər qalar. Təkcə xətlərdən ibarət olan əlifbada necə islahat aparmaq olar? Latın əlifbasında isə xətlər və dairələr var ki, onlar da çoxlu sayda kombinasiyaların yaradılmasına imkan verir.

**Ümumiləşdirilmiş əlifbanın prinsipləri**

Umar Əliyev: Latın əlifbasına keçiddə əsas prinsiplər aşağıdakılar olmalıdır.
1. Hər bir işarə müəyyən fonetik səs ifadə etməlidir.
2. İşarələr ya Latın əlifbasından olmalı yaxud da Latın hərflərindən düzəldilməlidir.
3. Rus hərfləri işlənməməlidir.
4. Müvafiq dildə olmayan fonemlər üçün işarələr yaradılmamalıdır. Başqa sözlə, həmin əlifbada olmayan səslər üçün əlavə hərflər yaradılmamalıdır. (Qeyd: Sonralar kiril əlifbası qəbul etdirilərkən Azərbaycan əlifbasında olmayan dörd səs əlifbaya əlavə edilmişdir.)
5. İşarələrin təkrarına yol verməmək (ərəb əlifbasında dörd cür tələffüz olunur) .
6. Diakritik işarələrin (məsələn nöqtələr) işlənməsinə yol verməmək.
7. Diftonqların işlənməsinə yol verməmək (məsələn, iki, üç hərfin bir səs kimi (fonem) işlənməsi - ¨ou¨, yaxud ¨ae¨, yaxud ¨sh¨ yaxud da ¨ch¨).
8. Uzun saitləri yaxud kar və incə samitləri fərqləndirmək üçün hər hansı xüsusi işarəninin işlənməsinə yol verməmək.

Bakıda keçirilən ilk Türkoloji Konqres haqda naməlum stenoqraf tərəfindən yazılmış stenoqrafiyadan bu hissələr Jalə Qəribova tərəfindən seçilmişdir. Yazıçılar İttifaqının Prezidenti Anar Rzayevə bizə bu cür nadir sənədlərin tapılmasında yardım etdiyi üçün təşəkkür edirik.

______

Tərcümə: Aynurə Hüseynova
Yoxlayan: Gülnar Aydəmirova
Veb üçün hazırlayan və redaktə edən: Arzu Ağayeva